Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

# İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsi Azərbaycanı daha güclü dövlətə çevirir

**Demokratik inkişaf yolu seçən ölkələr üçün insan hüquq və azadlıqlarının təmin edilməsi daim əsas prioritetlər sırasında yer alır. Məhz bu fonda Azərbaycanın yanaşması bundan ibatətdir ki, demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olmalıdır.**

Belə olduqda həm demokratik inkişaf daha dinamik xarakter alar, həm də insan hüquq və azadlıqları daha etibarlı şəkildə təmin edilər.

**Demokratik cəmiyyət insan hüquq və azadlıqlarının qorunmasının mühüm təminatçısıdır**

Bu gün ölkəmizdə insan hüquq və azadlıqlarının etibarlı qorunmasını, şəxsiyyətin şərəf və ləyaqətinə hörmət edilməsini təmin etmək üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Onların nəticələrini son illərdə bu müstəvidə əldə edilən nailiyyətlərdə, xalqın rifahının yüksəlməsində, ölkənin dünya arenasında nüfuzunun artmasında görmək olar. Azərbaycan Konstitusiyasına, eləcə də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və digər müvafiq beynəlxalq sənədlərə uyğun olaraq, bütün insan hüquq və azadlıqlarının təmini üçün genişmiqyaslı işlər görülür. Bura ilk növbədə şəxsin təhlükəsizliyi, düşüncə, söz və inanc, vicdan azadlığı, mülkiyyət, əmək və sərbəst iş seçimi, təhsil və tibbi xidmət kimi sferalarda dövlət tərəfindən həyata keçirilən fəaliyyət daxildir.

Sözügedən məqsədlə ötən müddət ərzində ölkəmizdə məhkəmə-hüquq sisteminin demokratik meyarlar çərçivəsində gücləndirilməsinə, müstəqilliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı qorunması üçün müstəqil bir dövlət institutuna çevrilməsinə yönəlmiş genişmiqyaslı tədbirlər həyata keçirilib. Ölkədə bununla bağlı aparılan digər islahatlar da Konstitusiyada təsbit edilmiş ümumbəşəri bəşəri prinsiplərə söykənir. Xatırlatmaq lazım gəlir ki, ölkə Konstitusiyasında insan və vətəndaş hüquqlarının, ə azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunub. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulub. Bundan başqa, o da təqdirəlayiq haldır ki, Azərbaycanda ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazası da formalaşıb və onun davamlı olaraq təkmilləşdirilməsi xüsusi diqqət mərkəzində yer alır. Bununla yanaşı, Azərnaycanda demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılıb. Məhz belə cəmiyyətdə insan hüquqları daha etibarlı şəkildə təmin olunur. Ölkədə çoxpartiyalılıq əsasında siyasi plüralizm mövcuddur, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqlarının müdafiəsi məqsədilə qanunun aliliyi prinsipləri bərqərar edilib. Burada bir mühüm məqamı da qeyd edək ki, Azərbaycan insan hüquqları sahəsində yni müstəqillik tarixindəçoxsaylı beynəlxalq konvensiya və sazişlərə qoşulub. Buna misal olaraq insan hüquqları və azadlıqlarına dair BMT-nin, ATƏT-in və Avropa Şurasının konkret sənədlərini göstərmək olar.



Özü də insan hüquqları və azadlıqlarına dair həmin sənədlərdə nəzərdə tutulan norma və standartlarin mütləq əksəriyyəti artıq Konstitusiyası və digər qanunvericilik aktında öz əksini tapıb. Azərbaycan həm də belə hesab edir ki, insan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

**Güclü dövlət insan hüquqlarının qorunmasında müstəsna rola malikdir**

Son illərin dünya təcrübəsi onu da göstərir ki, insan hüquq və azadlıqlarının etibarlı qorunmasının əsas vasitələrindən biri də güclü dövlətə sahib olmaqdır. Əks halda insan hüquq və azadlıqlarının etibarlı təminatından söhbət gedə bilməz. Bunu Azərbaycan timsalında əyani sübutlar formasında görmək olar.

Məlumdur ki, uzun illər Qarabağ münaqişəsi nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşmüşdü.

Ermənistanın işğalı nəticəsində azərbaycanlı məcburi köçkünlərin fundamental insan hüquqları kobud şəkildə pozuldu. Düşmənin təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpası üçün əlkəmiz dünya ictimaiyyətinə çoxsaylı müraciətlər etsə də nəticə olmadı. Problemin həllinə əsas maneə Ermənistanın qeyri-konstruktiv mövqe tutması, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Avropa Şurasının qətnamələrini heçə sayması oldu. Buna görə də problemin sülh yolu ilə həllinə çalışan ATƏT-in Minsk Qrupunun uzunmüddətli fəaliyyəti nəticəsiz qaldı. Vəziyyəti yalnız 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı zəfər dəyişdi. Azərbaycan ordusu düşmənin müqavimətini qırdı, müdafiə sədlərini darmadağın etdi. Ordumuzun gücü, qüdrəti döyüşlərin taleyini həll etdi. Bu, eyni zamanda Azərbaycanın məcburi köçkünlərinin pozulmuş hüquqlarının da bərpa olunması ilə də nəticələndi. İndi həmin məcburi köçkünlər yaxın tezlikdə öz doğma yurd-yuvalarına qayıdacaqlar. Bunun lda onların öozulmuş hüquqları bərpa ediləcək. Bu hüquqlar isə məhz güclü Azərbaycan dövləti tərəfindən təmin edilib. Deməli, insan hüquq və azadlıqlarının etibarlı qorunması üçün həm də güclü dövlətin mövcudluğu mühüm şərtdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**